# "Ölü simam yaxanı buraxmaz" - Nazim Hikmətin son fotosu

**Adalet.az-ın təqdim edəcəyi yazı Vera Tulyakovanın böyük şair Nazim Hikmətə həsr etdiyi kitabdan tərcümə edilib.**

1963-cü ilin iyunudur... İnsanlar 61 yaşında dünyasını dəyişən Nazim Hikmətlə vidalaşır. Fotodakı isə şairə hər zaman sadiqliyi ilə seçilən sevimli qadını Veradır... O, bəlkə də həyatında ilk dəfə olaraq Nazimin sözündən çıxır: onun dəfninə gəlir. Amma bu yazıda təsvir olunan kiçik xatiratımda Nazim ona dəfninə gəlməməyi bərk-bərk tapşırır:

**Nazim Hikmət:**

**-** Moskvada yazıçıların dəfn mərasimi harada keçirilir?

**Vera Tulyakova:**

**-** Dəfn mərasimi? "Yazıçılar Evi"ndə.

**Nazim Hikmət:**

**-** Desənə, məni də oradan götürəcəklər... Sən gəlmə, Verusya! Məni o halda görməni istəmirəm. Sizdə ölülərin üzünü niyə açıq saxlayırlar ki?! Vəhşilikdir! Sən ürkər, acı çəkərsən. Adətdir, deyə baxıb, acı çəkərsən. Sonra da o ölü sima yaxanı buraxmaz və aramıza girər.

**- Başqa nə olacaq?**

**-** Çələnglər olacaq. Həm də çox... Moskvada pyeslərimin oynandığı bütün teatrlardan çələnglər gələcək. Bəlkə, Leninqrad, Minsk, Riqadan da göndərdilər: Aktyorlar yazıçılarına son dəfə çiçək verəcəklər, bəlkə də. Çox gözəl! Nə yaxşı ki, dəfnə süni yox, təbii çiçəklər gətirirlər. Başqa mədəni qurumlar da çələng göndərəcək. İvan İvanoviç var idi ha - pyesimi qadağan edən və bir çoxlarının səhnələşdirilməsinə icazə verməyən - ən böyük çələngi o göndərəcək, əminəm. "Novıy mir" kimi jurnallar da çələng yollayacaq. Qəzetlərdən "Litemturnaya" da unutmaz. Hə, bir də "Moskovskaya pravda" da mütləq yollayacaq-uzun müddət orada yazılarım yayımlandı. Mənə dostluq və səmimiyyət göstərən bəzi ölkələrin səfirlikləri də nümayəndələrini göndərəcək. Bütün sosialist ölkələrin səfirləri orada olacaq. Fransa, İtaliya, İsveçin də həmçinin... Hə, Misiri də unutmayaq. Bir çox dövlətlərdəki Yazıçılar İttifaqlarının, Kommunist partiya katiblərinin çoxu başsağlığı teleqramları göndəcəklər. Hamısını qoru, bir gün gələr Türkiyəyə verərsən. Əvvəl-axır mənimlə əlaqəli bütün hadisələri öyrənmək istədikləri gün gələcək.



Bəzi siyasi dairələrin nifrəti, yazıçıların qısqanclıqları-hər şey geridə qalacaq, bir gün. Amma ölkəmə adam kimi dönməm üçün xeyli zaman lazım gələcək, canım. Artıq öldüyüm bilindiyi gün Türkiyədə olmağı çox istərdim. Qəhvə, çayxanalarda, teatr və universitetlərdə haqqımda nələrin danışdıqlarını az da olsa, eşitmək istərdim".

**Oğuz Ayvaz**

ədalət.-2017.-1 mart.-S.4.